# BAKI DÖVLƏT UNİVERSİTETİNİN
# MEDİA PROBLEMLƏRİ
# JURNALI



BAKU STATE UNIVERSITY
PROBLEMS OF MEDIA

1(2)
2026

AZƏRBAYCAN RESPUBLİKASININ ELM VƏ TƏHSİL NAZİRLİYİ

**BAKI DÖVLƏT UNİVERSİTETİ**

# BAKI DÖVLƏT UNİVERSİTETİNİN
# MEDİA PROBLEMLƏRİ JURNALI

# JOURNAL OF PROBLEMS OF MEDIA
## OF BAKU STATE UNIVERSITY

**№1 (2), 2026**

**Bakı – 2026**

# MİLLİ MƏTBUAT TARİXİNƏ DAİR ARAŞDIRMALAR

## SOVET REJİMİNİN İLK İLLƏRİNDƏ GİZLİ İSTİQLAL FƏDAİLƏRİNİN FƏALİYYƏTİ

**Asif RÜSTƏMLİ**
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
ORCID:0009-0004-0964-466X
e-mail: asif_rustemli@yahoo.com

**Xülasə**

Cümhuriyyət dönəmində 60-dan çox milli mətbuatımızın örnək nümunəræli tarixi salnaməyə çevrilmiş, Azərbaycanın müstəqillik problemlərini, azadlıq məfkurəsini, ictimai-siyasi missiyasını öz səhifələrində qabartmış və əbədiləşdirmişdir. Onlardan yalnız “İstiqlal” qəzeti Rusiya hərbi işğal qüvvələrinin ölkəyə təcavüzündən sonra da üç ilə yaxın konspirativ fəaliyyətini mütəmadi olaraq davam etdirmişdir.

Postcümhuriyyət dövründə “İstiqlal” mətbəəsinə səyyar çapxana da demək mümkündür. Çünki, fəaliyyət göstərdiyi müddət ərzində təqib və izləmələrdən yayınmaq üçün dörd dəfə ünvanını dəyişmək məcburiyyətində qalmışdır. Əldə etdiyimiz sənədlərdən məlum olur ki, sovet rejiminə qarşı milli istiqlal hərəkatının rəhbərliyi, xüsusilə Mirzə Bala Məhəmmədzadə “İstiqlal” qəzetinin və burada çalışan insanların təhlükəsizliyini təmin etmək üçün mətbəəni Bayıl, Keşlə, Türkan və ya Maştağa qəsəbəsinə köçürmək niyyətində olmuş, lakin bu ideyanı reallaşdırmaq imkanlarına nail ola bilməmişdir. M.B.Məhəmmədzadəni 1923-cü ilin iyun ayından ciddi-cəhdlə axtaran çekistlər onu tapa bilməsələr də müqavimət hərəkatının milli “Nina”sı adlandırıla biləcək “İstiqlal” qəzetinin mətbəəsini bir qonşunun milisə yazılı şəkildə satqınlığı nəticəsində aşkar edə bilmişlər. FK-nın müstəntiqlər kütləvi həbslərin səbəbi kimi cinayət işlərində “İstiqlal” qəzetindən və gizli mətbəədən milli istiqlalçıların əleyhinə yetərincə yararlanaraq onların ən ağır cəzalara, Solovki adalarına – “Buzlu cəhənnəmə (Ə.Abid) sürgün edilmələrinə nail oldular.

**Açar sözlər:** İstiqlalçılar, “İstiqlal” qəzeti, Mirzə Bala, Postcümhuriyyət, AFK

# ACTIVITIES OF SECRET INDEPENDENCE FIGHTERS IN THE EARLY YEARS OF THE SOVIET REGIME

**Asif RUSTAMLI**
ANAS Nizami Ganjavi Institute of Literature
ORCID:0009-0004-0964-466X
e-mail: asif_rustemli@yahoo.com

## Abstract

During the republican period, more than 60 of our national press became exemplary historical chronicles, highlighting and immortalizing the problems of independence of Azerbaijan, the ideology of freedom, and the socio-political mission on their pages. Of them, only the "Istiglal" newspaper continued its conspiratorial activities for about three years after the aggression of the Russian military occupation forces against the country.

In the post-republican period, the "Istiglal" printing house can also be called a mobile printing house. Because, during its operation, it was forced to change its address four times to avoid persecution and surveillance. From the documents we have obtained, it is clear that the leadership of the national independence movement against the Soviet regime, especially Mirza Bala Muhammadzadeh, intended to move the printing house to the settlements of Bayil, Keshla, Turkan or Mashtaga in order to ensure the safety of the "Istiglal" newspaper and the people working there, but could not achieve the opportunity to realize this idea. Although the Chekists, who had been searching for M.B. Muhammadzadeh since June 1923, could not find him, they were able to discover the printing house of the "Istiglal" newspaper, which can be called the national "Nina" of the resistance movement, as a result of a neighbor's written betrayal to the police. The investigators of the Federal Security Service used the "Istiglal" newspaper and the underground printing house as a reason for mass arrests in criminal cases against the national independence activists, and achieved their most severe punishments, including their exile to the Solovki Islands - "Ice Hell" (A. Abid).

**Keywords**: Istiglalists, "Istiglal" newspaper, Mirza Bala, Post-Cumhuriyet, AEK

# ДЕЯТЕЛЬНОСТЬ ТАЙНЫХ БОРЦОВ ЗА НЕЗАВИСИМОСТЬ В ПЕРВЫЕ ГОДЫ СОВЕТСКОГО РЕЖИМА

**Асиф РУСТЕМЛИ**
Института литературы им. Низами Гянджави
Национальной академии наук АР
ORCID:0009-0004-0964-466X
e-mail: asif_rustemli@yahoo.com

**Аннотация**

В джумхурийетьский период (1918-1920) более 60 наших национальных изданий стали образцовыми историческими хрониками, освещая и увековечивая на своих страницах проблемы независимости Азербайджана, идеологию свободы и социально-политическую миссию. Из них только газета «Истиглал» продолжала свою конспирологическую деятельность около трех лет после агрессии российских оккупационных сил против страны.

В постреприссенческий период типографию «Истиглал» можно также назвать передвижной типографией. Потому что за время своей работы она была вынуждена четырежды менять адрес, чтобы избежать преследований и слежки. Из полученных нами документов ясно, что руководство национально-освободительного движения против советского режима, особенно Мирза Бала Мухаммадзаде, намеревалось перенести типографию в поселки Байил, Кешла, Туркан или Маштага, чтобы обеспечить безопасность газеты «Истиглал» и работающих там людей, но не смогло осуществить эту идею. Хотя чекисты, которые разыскивали М.Б. Мухаммадзаде с июня 1923 года не мог его найти, но благодаря письменному доносу соседа полиции удалось обнаружить типографию газеты «Истиглал», которую можно назвать национальной «Ниной» движения сопротивления. Следователи Федерального управления уголовной полиции использовали газету «Истиглал» и подпольную типографию как повод для массовых арестов по уголовным делам против активистов движения за национальную независимость и добились для них самых суровых наказаний – ссылки на Соловецкие острова – «Ледяной ад» (А.Абид).

**Ключевые слова**: активисты движения за независимость, газета «Истиглал», Мирза Бала, пост-Джумхурийеть, Аз.ЧК.

## Giriş

Azərbaycan Fövqəladə Komissiyasının (AFK) hərbçiləri tərəfindən 1923-cü il oktyabrın 5-dən 6-na keçən gecə vətənpərvər, hürriyyətçi, istiqlal fədailərinin böyük və fəal bir qrupu İyun (1923) hadisələrindən sonra yenidən həbs olunmuşdur. Məhbusların bir qismi ilk dəfə saxlanılmışdı və nəyə görə həbs edilməsinin əsl səbəbindən xəbərsiz idilər. Amma, bir həqiqət hamıya məlum

idi ki, qəfil həbslər zamanı Milli istiqlalçıların gizli nəşr etdiyi və 19 sayı işıq üzü görən "İstiqlal" qəzetinin və bəzi məxfi kitabçaların çap olunduğu İstiqlal mətbəəsi Az.FK-çılar ("çekistlər") tərəfindən aşkar edilmişdir.

Oktyabrın 5-dən 6-na keçən gecə qəfil başlanan və bir aydan çox davam edən kütləvi həbslər zamanı saxlanan 20 nəfər azadlıq mübarizləri bunlardı; 1. Əbdül Vahab Zeynal Abdin oğlu Məhəmmədzadə, 2. Cəfər Qafar oğlu Cabbarlı, 3. Rəhim Əliağa oğlu Vəkilov, 4. Kərbəlayi Vəli Əyyub oğlu Mikayılov, 5. Əsədulla Hacı Ağa Mirzə oğlu Məmmədov, 6. Ağa Məmməd İbrahimov, 7.Novruz Ağa oğlu Ağayev, 8. Qurban İsa oğlu Musazadə, 9. Ağa Səlim Əbdüləli oğlu Rəhimov, 10. Əli Abbas Əliyev, 11. Əli Həsən Babayev, 12. Məmməd Kərim Heybət oğlu Kərimov, 13. Əbdül Rəhman Əbdül Rəhman oğlu Əbdülov (təxəllüsü Dai -A.R.), 14. Yusif Nəsib Məşədi Əliş oğlu İsmayılov, 15. Nəsrulla Yusif oğlu İsrafilov, 16.Məşədi Haşım oğlu İslamov, 17. Salman Məmməd Rza oğlu Rəhimov, 18. Hacı Baba Kərbəlayi Hüseyn oğlu Cəbiyev, 19. Ağa Kərim Əbdül Məmməd oğlu Əliyev 20. Mürsəlqulu Hacı Məmməd Bağır oğlu İmanov. Bu adları vurğulanan şəxslər dövrünün ziyalıları, mətbuat nümayəndələri, qəzetin işıq üzü görməsində maliyyə dəstəyini əsirgəməyən ianəçilər və vətənpərvər qüvvələr idi.

**Əsas hissə**

"İstiqlal"çıların haqqında geniş məlumat verməmişdən öncə kütləvi həbslərin səbəbələrini, təhrikedici amilləri nəzərdən keçirmək, araşdırmaq zəruridir. İstanbulda nəşrə başlayan "Yeni Qafqasiya" jurnalında çap olunan "Kor təsadüf" adlı məqalədə qeyd edilmişdir: "Bakıda qəlbzən (qəlp pul kəsən) makinası arayarkən Çeka məmurları... təsadüfən milliyyətpərvərlərə məxsus gizli bir mətbəə kəşf eyləmişlər... Miqdarı iki yüzə varan məhbusların əksəriyyəti müsavatçılardan ibarətdir. Üç sənədən bəri gizli fəaliyyət göstərən mətbəə mükəmməl kassaya və makinaya malik idi" (1).

Əlbəttə, öncədən vurğulamaq lazımdır ki, həm saxlanılanların sayı, həm də mətbəənin mükəmməlliyi barədə verilən informasiya bir qədər şişirdilmişdir. Az.FK məmurlarının qəlp pul kəsən makinanı arayarkən gizli mətbəə aşkar etmələri məsələsinə gəldikdə isə hadisənin özü sensasiya xarakterli ciddi əhəmiyyət kəsb etsə də kütləvi həbslərə səbəb olması həqiqətə uyğun deyildir. Əksinə, həbs olunan şəxslərin istintaq işlərini diqqətlə nəzərdən keçirildikdə oktyabrın 5-də FK məmurlarının başladığı təkrar kütləvi həbslərin iki fakta əsaslandığı üzə çıxır. Birincisi, İstanbulda M.Ə.Rəsulzadənin rəhbərliyi ilə nəşrə başlayan "Yeni Qafqasiya" jurnalının 1923-cü il tarixli ilk sayında çap olunan "Müsavat Firqəsinin protestosu" (2) başlıqlı bəyanat idi. Bu sənəd Müsavat Firqəsi

xarici ölkələr bürosu adından imzalanmış, "Kommunist", "Bakinski raboçi" qəzetlərində 1923-cü il 14 avqustda çap olunmuş təslimçi "Müsavatçıların bəyannaməsi"nə cavab olaraq qəbul edilmişdir.

Gizli "İstiqlal" mətbəəsinin aşkarlanmasının başlıca səbəbi əldə olunmuş iki arxiv sənədinə əsasən şərtlənir. Axtarış və həbslər üçün Az.FK Protokolunun nəticə hissəsinin 8-ci bəndində yazılır: " 5 oktyabr 1923-cü ildə Bakı Milisinin 3-cü Rayonuna Ağa Saleh Xəlil oğlu ərizə ilə müraciət etmiş, axtarış nəticəsində Müsavatın gizli mətbəəsi aşikar edilmişdir" (3).

Bu rəsmi sənəd təsdiqləyir ki, Gizli Müsavatın "İstiqlal" qəzetinin mətbəəsi təsadüfən deyil, konkret olaraq Ağa Saleh Xəlil oğlunun şikayət ərizəsi əsasında müəyyən edilmiş, elə həmin gün də Az.FK əməkdaşları kütləvi həbslər keçirməyə nail olmuşlar.

Azərbaycanın müstəqilliyi, istiqlalı uğrunda çarpışan, əzab-əziyyətlərə dözən bu mərd mübarizləri bir "spasibo"ya satan Ağa Saleh Xəlil oğlu kimdir?

Araşdırma zamanı məlum olmuşdur ki, müstəntiq Avlasyeviç 1923-cü il 13 oktyabr tarixində Ağa Saleh Xəlil oğlunu şahid qismində Az.FK-ya dəvət etmiş, ondan izahat almışdır. Anketə əsasən 26 yaşlı Ağa Saleh Cümhuriyyət dövründə və ondan əvvəl fəhlə işləmiş, sovet rejimi zamanı bir müddət milisioner olmuş, milisdən qovulduqdan sonra isə işsiz qalmışdır. Küçədə tütün alveri ilə məşğul olmuşdur. Bakının Aşağı Dağlıq küçəsi, döngə - 7, ev – 7-də yaşamışdır.

Ağa Saleh Xəlil oğlu müstəntiqə verdiyi izahatında yazmışdır: "Bir neçə dəfə gördüm ki, Novruz Ağayev küçədə Hacı Baba Cəbiyevlə görüşüb danışır. İndi gizli mətbəə yerləşən evin sahibi Hacı Baba Cəbiyevi tapmaq, gizləndiyi yeri bilmək üçün Novruz Ağayevdən soruşmaq olar.

***Sual:*** Novruz Ağayevin əlamətlərini yazın.

***Cavab:*** Novruz Ağayev uca boylu, yaşı təxminən 46-50 olar" (4).

Ağa Saleh Xəlil oğlu izahatını imzalamaq əvəzinə baş barmağını qırmızı mürəkkəbə batırıb sənədin ətəyinə basmışdır...

Gizli mətbəənin aşkar olunması Azərbaycan Fövqəladə Komissiyasının tarixində ilk ən "uğurlu" əməliyyat olsa da Mirzə Balanın Bakının mərkəzində sovet rejiminə qarşı milli müqavimət hərəkatının gizli şəbəkəsini yaratması, mətbəə qurması, "əks-inqilabi fəaliyyət" göstərməsi, sonra isə çox rahatlıqla ölkədən çıxıb getməsi səriştəsizliyin və qeyri peşəkarlığın biabırçı nümunəsi olmaqla yanaşı, sovet hüquq-mühafizə sistemini şoka salmışdı. Həbs olunan 20 nəfər istiqlalçının hər birinə müstəntiqin ilk sualı belə idi: Mirzə Balanı, onun qohumlarını tanıyırsanmı? Axırıncı dəfə onunla nə vaxt və harada görüşmüsən? Mirzə Bala harada yaşayırdı?

Mirzə Balanın Azərbaycanda olmadığını bilən istiqlalçılar bu suallara səmimi cavab versələr də amansız işgəncələrə məruz qalırdılır. Müstəntiqlər istədiklərinə nail ola bilməyəndə heç protokol da tərtib etmirdilər. Bəzən məhbusların istintaqa verdiyi ifadələr bu cümlələrlə başlayırdı: "Əvvəllər istintaqa yayğın ifadələr vermişəm. Xəbərdarlığı nəzərə alaraq səmimi ifadə verməyə hazıram." Bu cümlələrdən sonra müstəntiqlər məhbuslara istədikləri fikirlərə qol çəkdirirdilər. Bu cümlələrə qədər isə yol qeyri-insani işgəncə üsullarından, psixoloji terrordan, mənəvi sarsıntılardan, təzyiq vasitələrindən keçirdi.

Mirzə Bala ilə uzun illər yaxın dost olduqlarını bilən FK əməkdaşları istədikləri məlumatları ala bilmədikləri üçün Cəfər Cabbarlıya əzab və işgəncələr verdikdən sonra onu soyuq payız günlərində su doldurulmuş quyuya (qarsa) salmaqla iradəsini qırmağa cəhd göstərsələr də buna nail ola bilmirdilər. İşgəncə faktını C.Cabbarlının dostu və məsləkdaşı, onunla eyni vaxtlarda həbs olunan və qonşu kamerada saxlanılan Əbdül Vahab Məhəmmədzadə də təsdiqləyir. Cabbarlını "Azərbaycan qurtuluş hərəkatını təşkilatlandıranların, sövq və idarə edənlərin ən başda gələnlərindən biri" kimi dəyərləndirən Yurdsevər Cəfərə həbsxanada verilən təzyiq və təpkilər barədə yazırdı: "İlk tevqifi tam iki ay sürmüş ve bu müddet zarfında günlerce sulu bodruma ve haftalarca münferit hücreye konmak suretile türlü azap ve işkencelere maruz burakılmışdır. İkinci tevqifi, 5 ekim 1923 tarihinde vuku bulmuş ve yine aylarca ayni işkenceler ve haraketler içinde davam etmiştir" (5).

Həmkarının gözləri qarşısında baş verən vandal və barbar cəza üsullarını iqrar edən, təsdiqləyən, "Qırmızı terror"un ilk illərində Azərbaycan Milli İstiqlal hərəkatının başında dayanan Mirzə Bala Məhəmmədzadə dostu Cəfər Cabbarlının vəfatının üçüncü ildönümü münasibətilə ağır və məşəqqətli 1923-cü il hadisələrini yada salaraq yazırdı: "1923 Cəfərin həyatında mühüm bir yer tutur. İstila və vəhşət rejiminə qarşı gizli çalışan Cəfər bu il digər müsavatçı arkadaşları ilə yaxalanmış və Çeka bodrumunda aylarca ən ağır işgəncələrə məruz tutulmuşdur" (6).

Mötəbər sənədlərə əsasən həbsxana divarları arasında fiziki zorakılığa məruz qalan, qol-qabırğası sındırılan, lakin mənən sınmayan, mətanət, iradə nümayiş etdirən gənc ədibin dözümlülüyü, mübarizə əzmi heyrət doğurur. O ən ağır şəraitdə dostlara və uğrunda mücadilə apardığı ideala xəyanəti təsəvvürünə gətirmək duyğusundan belə uzaq idi. Xüsusilə, Mirzə Bala ilə bağlı suallar cavabsız qaldığı üçün Cabbarlıya qarşı intensiv "işgəncə kursu" oktyabrın 5-dən 13-dək davam etdirilmişdir.

Bir məqamı da xüsusi vurğulamaq zəruridir. Birinci həbsdə olduğu kimi ikinci həbsdən sonra da Çeka əməkdaşlarının yalanının üstünün açılması özünü

çox gözlətmədi. C.Cabbarlının mənzilini ələk-fələk edərək 5 oktyabr 1923-cü il tarixli protokolunda "Axtarış zamanı tapıldı və müsadirə edildi" cümləsinin qarşısında rus dilində - "Ni çeqo ne obnarujeno" (Heç nə aşkar edilmədi-A.R.) sözlərini yazanların Xalq Maarif Komissarı Tağı Şahbazinin və katib O.Cəlalbəyovun imzası ilə iki dildə yazılmış, "Gizlin" qrifli həyəcan dolu məktubu ilə yalanı üzə çıxmışdı. Məxfi məktubda yazılmışdı: "Gizlin. Azərbaycan Fövqəladə Komissiyonuna. Cabbarzadə həbs olunan zaman onda olan cümlə məktubələr, əz an cümlə məktubələr arasında bulunan "Qız qalası" əfsanəsi də alınmışdır. Həmin "Qız qalası" əfsanəsini Xəlq Məarif Komissarlığı kəndi parası ilə alaraq birinci hissəsi Məarif Komissarlığı tərəfindən nəşr olunan "Məarif və mədəniyyət" jurnalında təb olunmuşdur. İkinci hissəsi isə müəllifə verilmişdir ki, baxsun və jurnalın növbəti nömrəsində nəşr ediləcək idi.

Cabbarzadənin məktubələrinin arasında bulunan "Qız qalası" əfsanəsinin istisna edilərək Xəlq Məarif Komissarlığına verilməsinə dair qərardad edilməsi rica olunur. Xəlq Məarif Komissarı T.Şahbazi, katib O.Cəlalbəyov" (7).

Məktub məxfi şöbədə "8.X.23" tarixində 2697 nömrəsi ilə qeydə alınmış, icra edilməsi üçün Az.FK-nın Məxfi şöbəsinin səlahiyyətlisi Daad Məmmədə ünvanlanmışdır. Daad M. isə tapşırığı dərhal yerinə yetirmiş, yəni "Qız qalası" poemasının müsadirə edilmiş əlyazmasını "tapıb" üzə çıxararaq Maarif Komissarlığına göndərmiş, məktuba isə dərkənar qoyaraq onu Cəfər Cabbarzadənin sənədlər qovluğuna daxil etmək göstərişini vermişdir.

Az.FK-nın 1 №-li Məxfi şöbənin əməkdaşı V.Avlasyeviç Cəfər Cabbarlının 791 saylı cinayət işini vərəqlərkən buradakı 400 saylı axtarış və həbs orderini, mənzildə axtarışın nəticələri ilə əlaqədar 5 oktyabr 1923-cü il tarixli protokolu nəzərdən keçirdi. 1243 saylı anket Az.FK-da məhkumun iştirakı ilə doldurularaq Cəfər Cabbarlının milliyyəti - türk olduğu, Bakı quberniyasının Xızı kəndində doğulduğu, Bakı Universiteti Tibb fakültəsinin 2-ci kursunda oxuduğu, oktyabrın 6-da yaşadığı mənzildə (B.Salyan küç., döngə-1, ev-4) həbs edildiyi qeyd olunmuşdur. Müstəntiq V.Avlasyeviç həbsindən yalnız bir həftə sonra Cəfər Cabbarlı ilə növbəti dindirməni protokollaşdırmağa qərar verdi. 13 oktyabr 1923-cü il tarixli 1 №-li protokolda məhbusun adını, soyadını və atasının adını düzgün qeyd etsə də əvvəlki sənədlərdə olduğu kimi yenə də müstəntiq protokola yanlış şəkildə - "Cəfər - Zadə Qafar oğlu" yazdı. Bioqrafiq faktlar digər sənədlərlə eyniyyət təşkil edirdi. Lakin, bu protokolda bir yenilik də vardı. Cabbarlının sənədlərində öz əksini tapmayan yeni iş yeri haqqında ilk dəfə məlumat verilirdi. Cəfər "Kommunist" qəzeti ilə yanaşı 1922-1924-cü illərdə ayda 2 dəfə çıxmaqla Məhəmməd Həsən Baharlının məsul redaktorluğu ilə nəşr edilən "Ali İqtisadi Şuranın Əxbarı" adlı jurnalda da çalışmışdır. "Əxbar"ın məsul katibi

görkəmli yazıçı, peşəkar jurnalist Cəfər Cabbarlıya xüsusi hüsn-rəğbət bəsləyən Məmməd Səid Ordubadi idi. Jurnal iqtisadiyyata və kənd təsərrüfatına aid materiallar hazırlasa da hökumətin bu sahəyə aid qanun və qərarlarını da dərc edirdi. Cabbarlının imzası görünməyən bu jurnala Ordubadi tərəfindən dəvət olunduğu və burada da tərcüməçi vəzifəsində işlədiyini güman etmək o qədər də çətin deyildir. Bu faktın özü ədibin tərcümeyi-halına aydınlıq gətirmək nöqteyi-nəzərindən yeni və maraqlı olmaqla yanaşı daha dərin tədqiqata möhtacdır.

Az.FK-nın müstəntiqi V.Avlasyeviç 13 oktyabr 1923-cü il tarixli dindirmə protokolunun Cabbarlı “nə vaxt və harada həbs edilib” sualına cavabında yazdı: “Müsavat Partiyasına mənsubiyyətinə görə 1923-cü ilin 15 iyundan 12 avqustadək Az.FK-da həbsdə olub.”

Müstəntiq V.Avlasyeviçin Cəfərə ilk sualı belə oldu:

“Sual: - Mirzə Balanı tanıyırsınızmı və həbsdən çıxandan sonra onunla görüşmüsünüzmü?

Cavab: - Mirzə Balanı müsavatçı kimi tanıyıram və bu barədə onunla görüşlərim olub. Lakin, buraxılandan sonra Mirzə Bala ilə görüşməmişəm.

Sual: - Onun qohumlarını tanıyırsınızmı?

Cavab: - Onun qohumlarından heç kəsi tanımıram...

İstintaq protokolunu oxudum və öz ifadələrimi təsdiqləyirəm” (8).

Qırmızı mürəkkəblə yazılmış protokolu C.Cabbarlı və müstəntiq V.Avlasyeviç imzalamışdır. Sualların qoyuluşundan da göründüyü kimi söhbət dinc və sakit şəraitdə keçmişdir. Maarif Komissarının Fövqəladə Komissiyaya Cəfərlə bağlı müraciəti bu istedadlı gəncin Sovet quruluşu üçün də dəyərli sənətkar ola biləcəyini xatırlatması Az.FK-da bəzilərinə, yəqin ki, ilk növbədə rəhbərliyə çox mətləbləri anlatmışdı.

Əbdül Vahab Məhəmmədzadənin və digər istiqlalçıların istintaqını aparan müstəntiq V.Avlasyeviçin Cəfər Cabbarlıya “İstiqlal” qəzeti və onun gizli mətbəəsi haqqında bir dəfə də olsun sual verməməsi qəribə deyilmi?! “Müsavat”ın təbliğat və təşviqat işləri üzrə baş katibi Cəfər Cabbarlının doğurdanmı partiyanın orqanı olan “İstiqlal” qəzetinin gizli nəşrindən və onun məxfi mətbəəsindən xəbəri yox idi? Müstəntiqin “indi tutulanlardan kimlərlə görüşmüsünüz?” - sualını Cabbarlı adi qarşılayır və mənfi cavablandırır. Deməli, kimlərin tutulduğundan ədibin xəbəri var və müstəntiq də bu barədə məlumatlıdır. Az.FK-nın İslah evində gənc Cəfərə qarşı münasibətlərin qəfil mülayimləşməsi onun kamera yoldaşlarının diqqətindən yayınmadı. Hər kəs üçün əminlik yarandı ki, Cəfərin adını çəkməməyə görə işgəncəyə məruz qalmayacaqdır. “Cəfərin ədəbi şəxsiyyəti”ndən yazan məhbəs yoldaşı Əbdül Vahab qeyd edirdi ki,

Cəfərin üzərində həbsxanada iki növ təzyiq vardı; birincisi onu siyasi fəaliyyətdən kənarlaşdırmaq, ikincisi isə milli istiqlal məfkurəsindən uzaqlaşdıraraq sovet ədibi etmək qayəsi. Bu ikinci təzyiq Cəfərin son gününə qədər davam etmiş və nəhayət ölümü ilə nəticələnmişdir. Əbdül Vahab Məhəmmədzadənin bu fikirlərində böyük həqiqət vardır. Uzunmüddətli əzab və işgəncələrdən sonra cismani sağlamlığını anası, ailəsi və xalqı üçün qorumaq zərurətini anlayan Cəfər siyasi mövqeyində cüzi düzəlişlər və dəyişikliklər etməyə məcbur olmuşdur. Formal cəhətləri nəzərə almasaq C.Cabbarlı ilə V.Avlasyeviçin imzaladığı 1 saylı protokolu tərəflər arasında bağlanmış saziş və ya ən yumşaq deyimdə niyyət protokolu da adlandırmaq olar. 13 oktyabr tarixli dindirmə protokolundan sonra Cəfərin istintaqa cəlb edilməsi faktına rast gəlinmir. Amma, ədalət naminə qeyd olunmalıdır ki, C.Cəfərin "İstiqlal" qəzetinə materiallarının yazılmasında və hazırlanmasında xidmətləri danılmazdır.

***"İstiqlal" mətbəəsi və qəzeti necə yarandı, mətbu orqan hansı mövzuları işıqlandırırdı, harada və kimlər tərəfindən çap olunurdu?***

Azərbaycan Cümhuriyyətinin Rusiya tərəfindən işğalının ilk illərində sovet rejiminə qarşı gizli fəaliyyət göstərən "İstiqlal" qəzetinin yaradıcısı, baş yazarı və naşiri Mirzə Bala Məhəmmədzadə idi. Qəzetin səhifələrində bu barədə məlum səbəblərə görə heç bir imzaya rast gəlmək mümkün deyildir. Məxfi MK-nın üç ən vacib strukturundan biri nəşriyyat şöbəsi idi. Mirzə Bala bu şöbənin fəaliyyətinə xüsusi əhəmiyyət verirdi. Mətbəə yaratmaq, qəzet və kitablar çap etmək kimi məsul iş gizli Müsavat MK-nın sədr müavini Əbdül Vahaba həvalə edilmişdir. O isə bu sahədə çalışacaq işçilərin seçilməsinə, peşəkarlığına və əqidə möhkəmliyinə xüsusi əhəmiyyət verirdi. Bu və ya digər səbəblər ucbatından nəşriyyat şöbəsinin astagəlliyi, passivliyi, bir ildən çox vaxtda heç nə edə bilməməsi Mirzə Balanı hövsələdən çıxarırdı. O, nəşriyyat işi üçün MK-nın Rəyasət Heyəti qarşısında məsuliyyət daşıyan Əbdül Vahabı "partiya işinin inkişafında yeganə tormuz" adlandırmaqdan özünü saxlaya bilməmişdi. Əbdül Vahab gizli fəaliyyətdə ehtiyatlı olmağa üstünlük versə də sədrlə aralarındakı gərginliyi aradan qaldırmaq üçün "Kommunist" qəzetinin reportyoru Qurban Musazadənin vasitəsi ilə nəşriyyat şöbəsinə "Bak.raboçi" qəzetinin əməkdaşı Əli Abbas Əliyevi, həmin orqanın ekspeditoru Ağa Səlim Rəhimovu, kooperativ mətbəənin yığıcısı Əli Həsən Babayevi, "Gənc işçi" qəzetinin məsul katibi Əbdül Rəhman Daini dəvət edir. Şöbənin təşkilatlanma işinə və üzvlərin ideya hazırlığına çox vaxt sərf edildiyinə görə Mirzə Bala Əbdül Vahabı nəşriyyat işindən kənarlaşdırmamaq şərtilə bu sahəyə də rəhbərliyi birbaşa öz üzərinə götürür. Mirzə Balanın hərəkətlərini, xüsusilə mətbəə işçiləri ilə birbaşa təmaslara girməsini, göstərişlər verməsini Əbdül Vahab gizli fəaliyyətin nizam-intizam qaydalarının

pozuntusu kimi dəyərləndirsə də işin ölü nöqtədən tərpənəcəyini nəzərə alaraq sədrə güzəştə getməli olurdu. Beləliklə, Mirzə Balanın qiyabi nəzarəti və Əbdül Vahabın rəhbərliyi ilə gizli müsavatçıların nəşriyyat şöbəsinin ilk iclası 1921-ci ilin baharında Qurban Musazadənin Bakının Şahski döngəsindəki evində keçirildi. İlk yığıncaqda Əbdül Vahab Məhəmmədzadə, Ağa Səlim Rəhimov, Əli Həsən Babayev, Əli Abbas Əliyev və ev sahibi Qurban Musazadə iştirak edirdilər. Əbdül Vahab iclası açaraq bolşevik rejiminin Azərbaycan xalqına qarşı törətdiyi qanlı əməllərdən, işğalçılıq siyasətindən, qonşularla müqayisədə ikili münasibətindən danışır, azadlıq mübarizəsinə qoşulmağın zəruriliyini vurğulayır. O, gizli fəaliyyətə keçərək məzlum xalqa kömək etməyin yollarını açıqlayır, bu sahədə nəşriyyat işçilərinin qarşısında duran təxirəsalınmaz məsələlərdən söz açır. Yığıncaq iştirakçıları gizli fəaliyyətlərində xalq işinə sədaqətlərini bildirmək üçün müqəddəs “Quran” kitabına and içirlər. Əbdül Vahab təcili mətbəə yaratmaq üçün avadanlıqlar, çap maşını, şirift, kağız və digər materiallar əldə etmək üçün tapşırıqlar verir. Hər 15 gündə bir dəfə, eyni saatda Qurban Musazadənin mənzilində yığışmaq qərara alınır. Növbəti  iclaslarda andiçmə yolu ilə nəşriyyat şöbəsinin tərkibi genişlənir. “Gənc işçi” qəzetinin məsul katibi Əbdül Rəhman Dai, Azpoliqraftrestin 1№-li Dövlət mətbəəsinin müdir müavini Məmməd Kərim Kərimov, həmin mətbəənin yığıcısı Məşədi İslamov, “Əkinçi” qəzetinin əməkdaşı Nəsrulla İsrafilov əvvəlki tərkibə daxil olaraq nəşriyyat işinə yeni canlanma, yeni nəfəs gətirdilər. İclaslarda yeni yaranacaq mətbəənin yeri, ünvanı barədə də fikir mübadiləsi aparılmışdır. Mirzə Balanın fikrincə gizli mətbəə Bakının kənar kəndlərindən birində - Bibi-Heybətdə və ya Maştağada olmalıdır. Bayıl, Keşlə, Türkan və Qala kəndlərini təklif edənlər də var idi. Mətbəə avadanlığı ilə bağlı tapşırıqlar tədricən yerinə yetirilirdi. Ticarət işləri ilə məşğul olan vətənpərvərlərdən Əsədulla Məmmədov, Hacı Baba Cəbiyev və b. nəşriyyat işinə, qəzetin yaradılması prosesinə gizli maliyyə dəstəyi göstərirdilər. Ağa Səlim Rəhimov əski ərəb qrafikalı şiriftləri dövlət mətbəəsindən az-az cibində daşıyır, Əli Abbas Əliyev  isə çap valiki və mətbəə ləvazimatları əldə edirdi. İlk vaxtlar bunlar Ağa Səlim Rəhimova məxsus 2-ci Qannı-Təpə küçəsi, ev - 2-nin (indiki Adil Bünyadov küçəsi - A.R.) həyətində yerləşən köhnə balıq hisxanasında gizlədilir və mühafizə olunurdu. Sonra Əli Həsən Babayev Əbdül Vahabdan qəbul etdiyi 20 manat qızıl pula 3 puta yaxın türk şirifti və çap maşını alaraq mətbəənin texniki imkanlarını bir az da genişləndirmişdir. Ağa Səlim Rəhimov Qannı-Təpədəki balıq hisxanasında kardonlardan kəsərək şiriftlər üçün kassalar düzəltmiş, köhnə yığıcı, Dai təxəllüsü ilə şeirlər yazan Əbdül Rəhman Əbdülov burada şiriftlərin seçilməsi və əlifba sırası üzrə kassalara yerləşdirilməsi işini başa çatdırmışdır. Təxminən 1921-ci ilin ortaları gizli mətbəə iş üçün

tam hazır idi. Qannı-Təpədəki balıq hisxanasında ilk çap nümunələri təşviqat xarakterli vərəqələr oldu. İlk sınaqlar mətbəənin əyər-əskiyini üzə çıxartdı. Şirift məhdudluğu, xüsusilə fərqləndirici şiriftlərin azlığı çapın keyfiyyətinə və sürətinə maneələr törədirdi. Bununla belə Ağa Səlim Rəhimova məxsus 2-ci Qannı-Təpə küçəsi, ev - 2 ünvanında yerləşən köhnə balıq hisxanası gizli mətbəə üçün etibarsız yer idi. Çox keçmədi ki, İstiqlal mətbəəsi daha münasib ünvana - Əli Abbas Əliyevin Gimnaziya (indiki L.Tolstoy-A.R.) küçəsində yerləşən evinin 2-ci mərtəbəsindəki mənzilinə köçürüldü. Burada "İstiqlal" qəzetinin ilk nömrəsi 1922-ci ilin əvvəllərində işıq üzü gördü. İki səhifədən və A3+ formatlı "İstiqlal"ın birinci sayı haqqında Ağa Səlim Rəhimov 9 dekabr 1923-cü ildə istintaqa verdiyi ifadəsində yazırdı: "Əli Abbas Əliyevinin evində yenə iclas oldu. Orada Əbdül Vahab mənə bəyənnamənin mətnini verdi ki, yığıma hazırlayım. 1922-nin əvvəlində "İstiqlal" qəzetinin 1-ci nömrəsi çıxdı. Bizə MK-nın nəşriyyat işləri üzrə nümayəndələri haqqında Əbdül Vahab məlumat verməmişdi. "İstiqlal"ın birinci sayını 30-40 nüsxə, mən Əbdül Rəhman Dai ilə Əli Abbas Əliyevin Gimnaziya (indiki L.Tolstoy - A.R.) küçəsindəki evinin (döngə nömrəsini bilmirəm, yerini göstərə bilərəm) 2-ci mərtəbəsində çap etdik" (9).

Beləliklə, 1919-cu ilin fevralın 4-dən 1920-ci ilin aprelin 25-dək həftədə bir dəfə çıxmaqla 42 nömrəsi işıq üzü görən və Azərbaycan Cümhuriyyətinin işğalından sonra nəşrini dayandırmağa məcbur olan "İstiqlal" qəzeti təxminən 24 aylıq fasilədən sonra yenidən tamam fərqli biçimdə və fərqli tirajla, ən sadiq oxucularının görüşünə gizlin, gəlmişdir. Lakin, mövzuları cəmiyyətin çəkindiyi, dilə gətirməyə ehtiyat etdiyi problemlər idi. Ağa Səlim Rəhimovun yazdığı kimi onun özünün yığdığı, "1922-nin əvvəlində "İstiqlal" qəzetinin 1-ci nömrəsi"ndə çıxan bəyannamə Rusiya ordusunun müstəqil Azərbaycan Cümhuriyyətini aprelin 27-də istila etməsi ilə əlaqədar İstiqlal Komitəsinin Heyəti-Mərkəziyyəsi adından verilmişdir.

Ağır və real vəziyyəti obyektiv qiymətləndirən istiqlalçılar özlərinin sayca az, lakin mətin və cəsur oxucularını milli istiqlalın bərpası uğrunda mübarizəyə hazır olmağa çağırırdılar. Xəsisliklə sızan məlumatlara əsasən "İstiqlal" qəzetinin ilk nömrəsində çıxan bəyannamənin mətnini Mirzə Bala Məhəmmədzadə və Cəfər Cabbarlı yazmışdır.

Milli İstiqlal Komitəsi Heyəti-Mərkəziyyəsinin idarəetmə strukturu gizli fəaliyyətin zəruri tələblərinə uyğun olaraq aşağıdan yuxarı hər üç nəfər bir nəfərə tabe idi, yaxud hər bir nəfər üç nəfərə rəhbərlik edirdi. Əbdül Vahab 13 fevral 1927-ci ildə istintaqa verdiyi ifadələrdən birində etiraf etmişdir ki, Mərkəzi Komitənin Rəyasət Heyəti təkcə sədrdən - Mirzə Bala Məhəmmədzadədən

ibarət idi. Bu fikirdə böyük həqiqət vardır. Doğrudan da Mirzə Bala MK üzvlərinin hər biri ilə ayrı-ayrılıqda və birbaşa işləyirdi. Bəzən, bir MK üzvü onun digər həmkarına sədrin verdiyi tapşırıqlardan xəbərsiz olurdu. Milli İstiqlal Komitəsi Heyəti-Mərkəziyyəsində Mirzə Bala Məhəmmədzadənin Cəfər Cabbarlı ilə birbaşa əməkdaşlığı bu baxımdan istisna təşkil etmirdi. Məhz öncədən düşünülmüş bu iş üslubunun faydası nəticəsində yüzlərlə istiqlalçı, o cümlədən Cəfər Cabbarlı kütləvi həbslər zamanı Çeka müstəntiqlərinin faktsızlıq sindromuna düçar olması müqabilində ölüm düşərgələrinə sürgünlərdən, edam və qətllərdən kənarda qala bildilər. Sözsüz ki, müqəddəs Qurani-Kərimə and içərək gizli fəaliyyət yolunu seçən istiqlalçılar gördükləri işlərin əhəmiyyətini və məsuliyyətini yaxşı dərk edirdilər.

“İstiqlal” qəzetinin birinci sayının 30-40 ədəd - tələbatdan olduqca az buraxılmasına baxmayaraq hər bir nüsxə yalnız MK-nın qəza rəhbərlərinə göndərilir, materiallarla ən vacib üzvlər tanış olduqdan sonra tapşırığa əsasən qəzet məhv edilirdi. “İstiqlal”ın neçə nüsxəsi haralara və kimlərə göndərilməsi məsələsi yalnız sədrin müstəsna səlahiyyətlərinə daxil idi.

Öncədən planlaşdırıldığı kimi qəzetin ayda iki dəfə buraxılması nəzərdə tutulmuşdur. Lakin, Bakıda ictimai-siyasi vəziyyətin mürəkkəbliyi, “İttihadi-İslam” firqəsinin ləğvi, üzvlərinin kütləvi həbsindən sonra Müsavatın və digər müxalifət partiyalarının fəaliyyətinin ciddi izlənilməsi “İstiqlal”ın ayda iki dəfə işıq üzü görməsini mümkünsüz etmişdir. Nəzərə alsaq ki, “İstiqlal” qəzeti 18 ay - 1922-ci ilin aprelindən 1923-cü ilin oktyabrın 5-dək fəaliyyət göstərmiş və 18 sayı işıq üzü görmüş, sonuncu - 19-cu nömrəsi isə Az.FK-nın əməkdaşları tərəfindən müsadirə olunub onda bu mətbuat orqanının təxminən ayda bir dəfə çıxdığı qənaətinə gəlmək mümkündür ki, bu da sovet rejiminin amansızlığının və qəddarlığının tüğyan etdiyi şəraitdə böyük risklər, cəsarət və mətanət tələb edən səmərəli və əhəmiyyətli iş olmaqla yanaşı faktın mövcudluğu əsl vətənpərvərlik və qəhrəmanlıq nümunəsi idi.

“İstiqlal” qəzetinin 14 sayı Əli Abbas Əliyevin Gimnaziya (indiki L.Tolstoy - A.R.) küçəsindəki evinin 2-ci mərtəbəsində işıq üzü görmüşdür. Bu proses 1922-ci ilin aprelindən 1923-cü ilin mart ayınadək davam etmiş, mətbəə yerləşən binanın ətrafında şübhəli adamların müşahidə aparması diqqət çəkdiyi üçün yeni ünvan müəyyən olunana qədər çap avadanlıqları yenidən Ağa Səlim Rəhimova məxsus 2-ci Qannı-Təpə (indiki Adil Bünyadov - A.R.) küçəsi, ev - 2-yə gətirilmişdir. Yeni ünvan gizli mətbəə üçün münasib olmasa da sədrin təkidi ilə “İstiqlal” qəzetinin tarixi 15-ci sayının materiallarını etnoqraf Ələsgər Ələkbərov gətirmiş, mətnləri Əbdül Rəhman Əbdülov və Məşədi İslamov yığmış və

Məmməd Kərim Kərimov 26 aprel 1923-cü ildə Ağa Səlim Rəhimovun mənzilində gündüz və axşam 40-50 nüsxə çap etmişdir. "İstiqlal" qəzetinin 15-ci sayının bütün nüsxələrini Ağa Səlim Rəhimov 28 aprel 1923-cü ildə səhər saat 7-də "Bakraboçi" qəzeti redaksiyasındakı xidməti yerinə apararaq Ələsgər Ələkbərova təhvil vermiş, nömrənin orijinalını isə "Azərmətbuat" kontoru ekspedisiyasının arxivində, pilləkənin altında gizlətmişdir. Əslində Ağa Səlim Rəhimov qəzetin yığıcısı, məsul katibi, yığıcıların rəhbəri, gizli mətbəənin faktiki müdiri və "İstiqlal" arxivinin direktoru idi. Çap şəraitinin namünasibliyinə baxmayaraq "İstiqlal" qəzetinin 15-ci sayının işıq üzü görməsi üçün Mirzə Balanın israrlı təkidi və poliqrafistlərin ciddi səyi və ehtiyatkarlığı səbəbsiz deyildir. Qəzetin bu nömrəsində çap olunan "28 Aprel faciəsi münasibətilə" sərlövhəli intibahnamə məzmun etibarilə dolğun, mükəmməl, üslub etibarilə çox sərt idi.

Milli İstiqlal Komitəsinin Heyəti-Mərkəziyyəsi adilə qəzetin birinci səhifəsində yer alan intibahnamədə yazılırdı: "Vətəndaşlar! Millətdaşlar! Bu gün 27 apreldən üç sənədir keçiyor. Üç sənə bundan əvvəl Rusiya ordusu "inqilab" və "kommunizm" şüarilə vətənimizə soxulmuşdur. Qasiblər (qəsbkarlar) yerli Azərbaycan türklərindən əldə etdikləri acentələrin müavinətilə məmləkətə girmişlərdir. Bu gün hər kəsə aydın-açıqdır ki, 27 aprel faciəsi kommunistlərin hər yerdə çağırdıqları və bağırdıqları kimi Azərbaycan köylü və işçilərinin inqilabı deyil, sadəcə Rusiya ordusunun vəhşicəsinə istilasıdır" (10).

Bu intibahnamədə Çar Rusiyasında olduğu kimi Bolşevik Rusiyasının da azadlıqsevər Azərbaycan xalqına qarşı eyni işğalçı siyasət yüyrütdüyünü, xalqın sərvətlərini taladığını, haqqını və hüquqlarını tapdaladığını, ölkəyə fəlakətlər gətirdiyini, müqəddəs istiqlal məfkurəsindən əl çəkmək istəməyən ən dəyərli, fədakar oğullarını məhv etdiyini, sürgünlərə sürüklədiyini dərin bir yanğı ilə vurğulayan istiqlalçılar xalqa müraciətlərini azadlıq mübarizəsinə çağırışla bitirirdilər. İntibahnamənin sonunda deyilirdi: "Ey türk xəlqi! Səni azad edəcək və xoşbəxt yaşadacaq qanlı mübarizəyə bütün qüvvənlə hazırlan! Səni bu mübarizə xilas edəcəkdir! Azərbaycan istiqlalını bir dəfə qurdun, ikinci dəfə qurmaq bacarığına maliksən! Düşmənini tanı, mali intibahını yüksəlt, həqq səninlədir!

Yaşasın Azərbaycan istiqlalı! Yaşasın üç rəngli bayrağımız! Məhv olsun rus cahangirliyi!..." (10)

Yetərincə irihəcmli və həyəcan dolu "28 Aprel faciəsi münasibətilə" başlıqlı intibahnamə Milli İstiqlal Komitəsinin Heyəti-Mərkəziyyəsi adı ilə imzalansa da sitat gətirilən yığcam, lakonik cümlələrin ruhundan, üslubundan bu bəyannamənin də Mirzə Bala Məhəmmədzadə və Cəfər Cabbarlı təfəkkürünün

məhsulu olduğuna şübhə yeri qalmır. Doğrudur, Az.FK səlahiyyətliləri Malçenkovların, Nikolayevlərin "İstiqlal"a kim məqalə yazırdı? - sualına cavabında Məmməd Kərim Kərimov uzun pauzadan sonra Mirzə Balanın, Əbdül Vahabın və Qurban Musayevin adlarını çəkirdi... Ağa Səlim Rəhimov da eyni suala cavab verərkən 3-cü Ali-ibtidai məktəbdə birgə oxuduğu, yaxın və səmimi münasibətdə olduğu, özündən 2-3 yaş kiçik, qonşu hücrədə saxlanılan Cəfər Cabbarlının adını dilinə gətirmədi. Çünki, birincisi onu Cəfərin adını çəkməyə məcbur etmirdilər. İkincisi, "İstiqlal" qəzetinə Cabbarlının məqalə yazmasından çox az adamın xəbəri var idi. Üçüncüsü, Cəfər gizli fəaliyyət üçün tələb olunan nizam-intizam qaydalarına çox səliqə ilə əməl etmişdir. "İstiqlal" qəzetinin çap olunduğu ünvanlar Bakının "Dağlı" məhəlləsində, Cabbarlının yaşadığı evə yaxın ərazilərdə yerləşsə də ədib mətbəəyə getmirdi. Daha doğrusu, mətbəə işçilərinin əksəriyyəti Cəfərin "İstiqlal" qəzeti ilə  bağlılığından xəbərsiz idilər. Nə qədər ki, Cəfər Cabbarlı sağ idi onun cismani təhlükəsizliyi baxımından bu sirr rəsmi səviyyədə heç harada açıqlanmamışdır. Böyük ədibin vəfatından sonra isə onun Azərbaycanın istiqlal mücadiləsinə verdiyi töhfələr sırasında "İstiqlal" qəzetindəki xidmətləri də dilə gətirilərək xatırlanmışdır. Təbii ki, bu istiqamətdə qədirşünaslıq nümayiş etdirərək Cabbarlının gizli fəaliyyəti ilə bağlı fədakarlığını ilk dəfə geniş oxucu auditoriyasının diqqətinə çatdıran Mirzə Bala Məhəmmədzadə olmuşdur. O, böyük dramaturqun vəfatı münasibətilə yazdığı irihəcmli xatirə-məqaləsində 1923-cü ilin ağır günlərini belə yada salırdı: "Qızıl Rusiya istilası üzərinə gizli çalışmaya başlayan Müsavat firqəsinin mərkəzi heyətində Cəfərlə genə bərabər idik. Bərabər çalışıyorduq və ***gizli çıxarmaqda olduğumuz "İstiqlal" qəzetəsini Cəfərlə bir yerdə yazar***, (fərqləndirmə mənimdir - A.R.) basar və yaydırardıq. O, bu sifətlə 1923-də Bağırovun idarə etdiyi Çeka (QPU) tərəfindən digər arkadaşlarımızla bərabər sulu və qaranlıq podrumlarda (zirzəmilərdə - A.R.) qeyri-insani işgəncələrə məruz qalmışdır. Fəqət, o qətiyyən sarsılmamış və prinsipindən, hürriyyət, milliyyət və Azərbaycançılığından zərrə qədər də geri çəkilməmişdir" (11).

"İstiqlal" qəzetinin gizli nəşri üçün 2-ci Qannı-Təpə küçəsi, ev - 2 ünvanda yerləşən balıq hisxanası mətbəə işinin ən adi tələblərinə cavab vermirdi. Burada məxfi fəaliyyətin üstü hər an açıla bilərdi. Hər cür gözlənilməz "sürprizlərdən", ehtiyatsızlıqdan sığortalanmaq üçün Milli İstiqlal Komitəsinin Heyəti-Mərkəziyyəsi gizli mətbəəyə daha etibarlı ünvan arayırdı. Bu problemlə birbaşa Azərbaycanı Tədqiq və Tətəbbö cəmiyyəti rəyasət heyətinin katibi, 1927-ci il həbslərindən sonra Solovkiyə sürgün edilən, Əhməd Hacınskinin bacısı oğlu Ələsgər Ələkbərov və Ağa Səlim Rəhimov məşğul idi. Bir gün Ələsgər Ələkbərov onun yeni-yeni geyimlərinə həsəd aparan və bu barədə ona suallar verən 1905-

ci il təvəllüdlü, orta təhsilli, kitabxanaçı, ruscadan tərkcəyə tərcüməçi Salman Rəhimovu Sabir adına kitabxanada görür. Ələsgər Qarabağlı dostu Bağırov üçün kirayə mənzil axtardığını ona bildirir. Salman zarafatla ona deyir ki, "burjuylar üçün yox, proletar üçün boş otağım var." Ələsgər Salmandan yaşadığı ünvanı soruşur. Salman Suraxanı küçəsində (indiki Çingiz Mustafayev adına küçə - A.R.), Məscidlə üzbəüz, 174 №-li evdə yaşadığını bildirir. Ələsgər ertəsi gün mənzillə tanış olduqdan sonra Salmanla bir aylıq kirayə haqqını 10 manat qızıl pula razılaşırlar. Salman mənzilin açarını Ələsgərə verdikdən sonra Buzovnadakı bağına gedir. O, 15 gündən sonra yeni kirayənişini - Bağırovu pasport qeydiyyatına saldırmaq məqsədilə şəhərə qayıdır. Lakin, mənzilində Ələsgərlə Ağa Səlimi mini mətbəə şəraitində işlədiyini görür. Ələsgər vizitka, dəftər çap etdiklərini desə də qarşı tərəf ona inanmır. Bu zaman Ələsgər Salmana mətbəədə gizli "İstiqlal" qəzetini, Müsavat partiyasının bəyannamələrini çap etdiyini göstərir. Salman gördüklərindən qorxuya düşərək mətbəənin təcili onun mənzilindən çıxarılmasını xahiş edir. O, bu zaman müsavatçıların 15 nəfərinin həbs edildiyini və hələ də buraxılmadığını yaxşı bilirdi. Ələsgər kirayə haqqını artırmağı, ona vəzifə verməyi təklif etsə də Salman bunlarla razılaşmır. Ələsgər "Braunnik" revolverini ona göstərərək heç harada "artıq-əskik danışmamağı", onun yoldaşlarının çox və silahlı olduğunu Salmanın diqqətinə çatdırır və hələ çekistlər tərəfindən izləndiklərini, imkan düşən kimi mətbəəni başqa yerə köçürəcəklərini bildirir. Salman Rəhimov əlacsız qalaraq Buzovnaya qayıdır və burada çox qala bilmir. Yenidən şəhərə, mənzilinə dönən Salman "İstiqlal" qəzetinin yeni nömrəsini çap edən Ağa Səlim Rəhimova və Məmməd Kərim Kərimova müəyyən köməklik və xidmətlər də göstərməyə məcbur olur.

Ağa Səlim Rəhimov Az.FK-nın hücrəsində uzunmüddətli və qeyri-insani metodlarla həyata keçirilən əzab və işgəncələrdən sonra 1923-cü ilin dekabrın 9-da istintaqa verdiyi ifadəsində yazırdı: "Əvvəlki dindirmələrdə düz deməmişəm. İndi hər şeyi düz demək istəyirəm. Təxminən bu ilin avqust ayı idi. Nəsrulla İsrafilov xidməti yerimə - "Bakraboçi"nin ekspedisiyasına gələrək mənə dedi ki, Çadrovı-62-yə get, orada səni Mirzə Bala gözləyir. Mən nahardan sonra ora getdim. Mirzə Bala "Fond" məqaləsinin əlyazmasını mənə verdi, Məmməd Kərim Kərimovla görüşməyi, Salman Rəhimovun evində yerləşən mətbəədə bu məqaləni yığıb çap etməyi tapşırdı. Mən sabahısı, cümə axşamı mətbəədən yığıcı Məmməd Kərim Kərimovu götürüb Salman Rəhimovun evinə getdim. O evdə yox idi. Məmməd Kərimlə işi cümə günü görməyi danışdıq. Təyin olunan vaxtda mən Məmməd Kərimlə yenə Salman Rəhimovun mənzilinə gəldik. O evdə idi. Salman əvvəl dedi ki, mətbəənin ümumi qapısının açarı onda yoxdur, kirayənişindədir. Sonra fikirləşib dedi ki, gəlin mətbəəyə bacadan girək. Biz ora

girib işə başladıq. Salman Rəhimov iş üçün hər şeyi verdi. Bir az sonra kirayənişin gəldi. O istədi ki, birbaşa bizim yanımıza gəlsin. Salman ona xəbərdarlıq etdi və yanımıza buraxmadı. Ona dedi ki, burada təmizlik işləri görürük. İki saatdan sonra işləri qurtardıq. Biz Məmməd Kərimlə getdik. Bütün çap olunmuş işləri, 30 nüsxə qəzeti mən götürdüm və Mirzə Balaya Çadrovı-62-də şəxsən verdim" (12).

Salman Rəhimovun Suraxanı küçəsi 174-də yerləşən mənzilində "İstiqlal" qəzetinin cəmi iki nömrəsi - 16 və 17-ci sayları nəşr olundu. Sonuncu nömrədə iki mövzu xüsusi aktuallıq kəsb edirdi. Bunlardan biri Dağlıq Qarabağda yaşayan ermənilərə muxtariyyət verilməsinə həsr olunmuş intibahnamə idi. Mirzə Balanın Heyəti-Mərkəziyyə adından verdiyi sərt bəyanatda Dağlıq Qarabağ muxtariyyətinin təsisi Azəri-türk xalqına qarşı bolşeviklərin törətdiyi misilsiz xəyanət və cinayət kimi qiymətləndirilmişdir. İkincisi, "Fond" məqaləsinin gündəmə gətirdiyi əsas məsələ Milli İstiqlal Komitəsinin maliyyə probleminin gün-gündən ağırlaşan vəziyyətinə çarə aramaq, yardım fondu yaratmaqdan ibarət idi. Üzvlük haqqlarından və ianələrdən ayda toplanılan 220-230 manatdan aclıq keçirən məhbuslara və ailələrinə, M.Ə.Rəsulzadənin həyat yoldaşı Ümbülbanu xanımdan tutmuş sonuncu həbs olunan istiqlalçının ailəsinə qədər 10-70 manat miqdarında yardım olunurdu. Paradoksal vəziyyət ondan ibarət idi ki, hər ay həbs olunanların sayı artır, üzvlük haqqı ödəyənlərin isə sayı azalırdı. Vəziyyətin dözülməzliyinə baxmayaraq gizli şəraitdə humanitar aksiyanı həyata keçirən istiqlalçıların mənəvi zənginliyi və milli dəyərlərə sadiqliyi hər bir azərbaycanlı üçün qürurverici faktdır.

Mənzil sahibinin etirazından sonra gizli mətbəə Salman Rəhimovun evində qala bilməzdi. Yeni, etibarlı yer tapmaq isə müşkülə çevrilmişdi. Ə.H.Qarayevin sədrliyi ilə yaradılan və fəaliyyət göstərən Şura İdarələrini təmizləyən komissiya və  Az.FK "Şura hökumətinə qarşı bir hissi-ədavət və nifrət oyatmağa çalış"anları çox ciddi təqib edirdi. Gərgin şəraitdə Milli İstiqlal Komitəsinin lideri Mirzə Bala Məhəmmədzadə özünün gecə-gündüz axtarıldığına rəğmən şəxsi həyatını təhlükəyə ataraq Bakıda bir aydan çox gizlin yaşadığı mənzilin etibarlılığına güvənərək "İstiqlal" qəzetinin mətbəəsini Çadrovı küçəsi, ev 62-yə köçürmək qərarına gəldi. Evin sahibi, 52 yaşlı, əslən Cənubi azərbaycanlı, Səttar xanın milli-azadlıq hərəkatının fədaisi, 1918-ci il mart soyqırımında erməni terrorçularına qarşı özünümüdafiə dəstələrindən birinin döyüşçüsü Hacı Baba Kərbəlayi Hüseyn oğlu Cəbiyev idi. O, Cümhuriyyət dövründə milli istiqlalımızın təəssübkeşi və Müsavat firqəsinin üzvü olaraq gizli Milli İstiqlal Komitəsinə dəfələrlə maliyyə dəstəyi göstərmişdir. Azərbaycanın istiqlalı, hürriyyəti

ilə qəlbən bağlı olan Hacı Baba Cəbiyev ixtisasca tüccar idi və kiçik ticarət sahəsində fəaliyyət göstərirdi. Onun evinin konspirasiya baxımından üstün cəhəti ondan ibarət idi ki, mənzilə bir-biri ilə kəsişən Çadrovı və Aşağı-Dağlıq küçələrindən ensiz, dar səki uzanırdı, yaxud hər iki küçəyə bir ünvandan qapılar açılırdı. Ev hüquq-mühafizə orqanları əməkdaşlarının qəfil hücumuna məruz qalarsa gizlənən şəxs xilas üçün iki yoldan birini seçmək imkanlarına malik olurdu.

H.B.Cəbiyevin 29 noyabr 1923-cü ildə istintaqa verdiyi ifadə ilə Salman Rəhimovun ifadəsinin birinci variantı ilə təxminən üst-üstə düşür. O da deyir ki, Ələsgərlə küçədə görüşdüm, bacısı üçün bir aylıq kirayə ev axtarırdı. Evimi təklif etdim. O, Ağa Səlim Rəhimovla evə baxmağa gəldi, bəyəndi. Bir aydan sonra Ələsgər yanıma gəldi, bacısının bağda qaldığını, özünün isə Almaniyaya gedəcəyini bildirdi. Dedi ki, mənzil haqqı ilə bağlı Ağa Səlimlə əlaqə saxla, mənzildə o qalacaq. 3-4 həftədən sonra evə baxmağa gəldim. Ağa Səlim bir başqası ilə otaqda çap işi görürdü. Mən ona dedim ki, burada heç nə çap etmək olmaz, gedib milisə xəbər verərəm. O dedi ki, gedib xəbər versən sənə pis olar. Mən getdim, onlar qalıb çap edirdilər...

Sadəlövh adamlar üçün nəzərdə tutulmuş, özünümüdafiə xarakterli yayğın ifadələr təbii ki, FK müstəntiqlərini qane edə bilməzdi. Saç-saqqalı ağarmış qocaman inqilabçını vəhşicəsinə döymək, işgəncələr vermək Xüsusi şöbənin kameralarında adi hal almışdı. Hacı Baba Cəbiyevə qarşı tətbiq edilən 3 nömrəli metoddan sonra ifadələrdə ciddi dəyişikliklər özünü büruzə verdi. Hacı Baba Cəbiyev hətta, “İstiqlal” qəzetinin gizli mətbəəsini Ağa Səlimlə birlikdə Salman Rəhimovun evindən öz mənzilinə necə köçürdüyünü də ətraflı danışmalı olur. O deyirdi: “Əlavə edirəm: (Əlavələr həmişə cəza və işgəncələrin nəticəsində alınırdı və müstəntiqin istəyinə xidmət edirdi - A.R.) - Ələsgər məndən otağı aldıqdan 2-3 həftə sonra yanıma gəlib dedi ki, bacım o otağa qalmaq üçün gəlməyəcək. Sonra Ələsgər otaqda vizitka və məktub çapı üçün kiçik mətbəə qurmaq istədiyini və açıq mətbəə kompaniyasına daxil olmağı mənə təklif etdi. Bundan imtina etsəm də o dedi ki, səni kompaniyaya daxil edirik. Sabah Ağa Səlim gələcək, onunla mətbəə işi üçün get. İkinci gün Rəhimov 4 kisə ilə yanıma gəldi. Biz onunla Suraxanı küçəsinə, Məscidə çatmamış bir dalana döndük. Rəhimov qapını açdı, otağa girdik. Döşəmədə şiriftlə dolu kassalar, böyük və sarı val və dəmir meydança vardı. Araba tutduq, bunların hamısını arabaya yığdıq, üstünü kisələrlə örtdük. O, qapını bağladı. Biz onları Çadrovı küçəsi, ev 62-yə apardıq, hansı ki, o otağın şəklini Ələsgər çəkmişdi. O, arabaya 200 000 manat ödədi. Mətbəə şeylərini otağa yığdıqdan sonra mən evə getdim, o (Ağa Səlim Rəhimov nəzərdə tutulur - A.R.) orada qaldı” (12).

Beləliklə, "İstiqlal"ın "səyyar mətbəəsi" özünün sonuncu, dördüncü ünvanına qədəm qoydu. Hacı Baba Cəbiyevə məxsus Çadrovı küçəsi, ev - 62-də "İstiqlal" qəzetinin cəmi iki sayı çap olundu. Qəzetin 1923-cü il sentyabr, 18-ci sayı oxucuların ünvanlarına vaxtında çatdırılsa da 19-cu nömrəsinə bu xoşbəxtlik nəsib olmamışdır. FK-nın əməkdaşları agentura məlumatına əsasən Mirzə Bala Məhəmmədzadənin gizli yaşadığı ünvanı öyrənərək onu həbs etmək üçün 1923-cü ilin oktyabrın 5-də Çadrovı küçəsi, ev - 62-ni mühasirəyə almış, burada İstiqlal Komitəsinin sədrini tapa bilməsələr də gizli mətbəəni aşkarlamış, "İstiqlal"ın sonuncu - 19-cu sayını çap edən Ağa Səlim Rəhimovu və Qurban Musazadəni "iş başında" yaxalayaraq onların qollarını qandallamış, qəzetin bütün nüsxələrini isə müsadirə etmişlər.

"İstiqlal" qəzetinə kimlərin hansı mövzuda yazması geniş tədqiqata möhtac olan sahədir və tarixi mübarizəmizin bu dövrünün sanballı elmi əsərlərlə işıqlandırılacağına ümidlər bəsləyirik. Bununla belə araşdırma zamanı arxiv materiallarından xəsisliklə sızan bəzi məlumatları saf-çürük edərək diqqətə çatdırmağı da vacib sayırıq. Qəzetə baş məqalələrin və bəyannamələrin yazılmasında Mirzə Bala Məhəmmədzadə, Əbdül Vahab Yurdsevər və Cəfər Cabbarlı danılmaz xidmətlər göstərmişdir. Rəhim bəy Vəkilov, Kərbəlayi Vəli Mikayılov, Qurban Musayev, Nəsrulla İsrafilov, Əbdül Rəhman Dai və digərlərinin məqalə və məlumatlarının "İstiqlal"da yer alması şübhəsizdir. Mətnlərin yığılması ilə Qurban Musayev, Əbdül Rəhman Əbdülov, Əli Həsən Babayev, Məşədi İslamov, korrektura ilə Nəsrulla İsrafilov məşğul olmuşdur. Qəzetin 19-cu sayında əsas ideya istiqamətini, başlıca mövzularını da müəyyən etmək mümkün olmuşdur. "Bak.raboçi" qəzetinin sabiq əməkdaşı Əli Abbas Əliyevin dindirmə protokolunda ifadəsinə əsasən "İstiqlal" qəzetinin birinci sayının əsas mövzusu Müsavat partiyasının bərpası və hakimiyyətə gəlmək uğrunda mübarizə proqramına həsr olunmuşdur. Qəzetin ikinci nömrəsində mart faciəsindən, növbəti saylarında aprel çevrilişindən, 28 May istiqlalından, Bakının qurtuluşundan, beynəlxalq vəziyyətdən, Əli Mərdan bəy Topçubaşovun Parisdə fəaliyyətindən, Mirzə Balanın Avropada vəziyyət haqqında məruzəsindən, Zaqafqaziya Federasiyasının, SSRİ-nin yaradılmasından, Dağlıq Qarabağa muxtariyyət verilməsindən, Azərbaycandan ayrılmasından və tarixi hadisələrdən bəhs edən materiallar - məqalələr, müraciətlər, bəyanatlar verilmişdir. "İstiqlal" qəzetinin 19 sayında çap olunan materialların mövzusu haqqında daha dəqiq məlumata FK-nın Məxfi-Operativ hissəsinin müvəkkili Daad Mamedin 19 nəfər müsavatçının işi üzrə 1924-cü ilin fevralın 9-da hazırladığı yekun qərarda yazılır: "Qurban Musayev və Ağa Səlim Rəhimov həbs olunan gün - oktyabrın 5-də "İstiqlal" qəzetinin 19-

cu nömrəsini çap edirdilər ki, orada partiya MK-nın Azərbaycandan Dağlıq Qarabağı ayırıb zəhmətkeş xalqa (?!) verilməsi əleyhinə, eləcə də müsavatçıların bəyannaməsi əleyhinə məqalələri yerləşdirilmişdir" (13).

İşğalçı bolşevik rejiminə qarşı vətənpərvərlik hərəkatına, milli müqavimət mübarizəsinə qoşulan istiqlalçılar nə etdiklərini, onları gələcəkdə nə gözlədiklərini gözəl bilirdilər. Ağa Səlim Rəhimovun qardaşı qızı Əzizə Həsən qızı Rəhimova bu sətirlərin müəllifinə danışmışdır ki, Ağa Səlimin həyat yoldaşı Səfurə xanım özü yetim böyümüş, iki uşaq anası idi. Ağa Səlimin gizli işindən xəbər tutanda ona deyib: Mən özüm yetim olmuşam, zillətlə böyümüşəm, uşaqlarını yetim qoyma!

Bəlkə də Ağa Səlimlər, Əbdül Vahablar, Mirzə Balalar, Cəfər Cabbarlılar olmasaydı Dağlıq Qarabağı Azərbaycandan qopardıb "zəhmətkeş, məzlum" erməni xalqına hədiyyə edənlər qərarlarından bir daha geri çəkilməyəcəkdilər.

İstiqlal mətbəəsi eyniadlı qəzetdən daha əvvəl yaradılmış və fəaliyyətə başlamışdır. Qəzetin ilk nömrəsinin çıxmasına qədər İstiqlal komitəsinin "listovka"ları, ayrı-ayrı çap məmulatları bu mətbəədə işıq üzü görmüşdür. Bu barədə Az.FK-nın müstəntiqlərinə 12 dekabr 1923-cü il tarixində ifadə verən "Gənc işçi" qəzeti redaksiya heyətinin məsul katibi, könüllü olaraq gizli İstiqlal hərəkatına qoşulmuş 25 yaşlı Əbdül Rəhman Dai yazırdı: "Mən, gizli Müsavat partiyasının üzvü Səlim Rəhimovun mənzilində çap üçün şirift yığmışam. İlk dəfə 1921-ci ilin yayında və bütün ilboyu yığmışam. 1922-ci ildə bir dəfə, 1923-cü ildə dörd dəfə; ilin əvvəlində 1 bəyannamə, 27 aprelə aid yığmışam, son ikisini unutmuşam. Bəyannamələr Sovet hökumətinin əleyhinə, Azərbaycanda bolşevik hökumətinin devrilməsinə çağırış idi" (14).

Arxiv sənədlərindən məlumdur ki, gizli mətbəə 1921-ci ilin ortalarından iş üçün tam hazır idi. "İstiqlal" qəzetinin ilk nömrəsi isə 1922-ci ilin əvvəllərində işıq üzü görmüşdü. Bəs bu 7-8 ayda gizli mətbəədə hansı işlər icra edilirdi? Ümumiyyətlə mətbəədə "İstiqlal" qəzetindən əlavə hansı çap fəaliyyəti həyata keçirilirdi? Rəhman Əbdülov "1921-ci ilin yayında və bütün ilboyu" nə yığdığını aydın və birmənalı şəkildə qeyd etməmişdir. Əbdül Vahabın isə bu mövzuda yeni və maraqlı məlumatlarına həbsindən bir neçə il sonra, 13 fevral 1927-ci ildə istintaqa verdiyi izahatında rast gəlirik. Onun dindirmə protokolunda yazılırdı: "O, (Mirzə Bala nəzərdə tutulur - A.R.) çox tez əl ilə işləyən çap dəzgahı aldı, şirift tapdı. İstəyirdi ki, tez-tez və çoxlu təşviqat vərəqələri çap etsin. Hətta, bir neçə kitabça yazdı və çap etdirdi. ...Təşviqat vərəqələri ilə birlikdə bu mətbəədə Müsavat partiyasının 2-ci qurultayda qəbul edilmiş proqramının hissələri də çap olunmuşdur. Mirzə Bala özünün bir kitabçasını da orada çap etdirdi" (15).

"İstiqlal" qəzetinin fəaliyyət meydanını və zamanını genişləndirən, zənginləşdirən eyniadlı mətbəədə çap edilmiş təşviqat vərəqələrinin sayını və miqdarını müəyyənləşdirmək mümkünsüzdür. Ən azı ona görə ki, təlimata uyğun olaraq gizli təşviqat materialları oxunduqdan sonra məhv edilirdi və saxlanılması qadağan idi. Müsavat partiyasının 2-ci qurultayında qəbul edilmiş proqramının ayrı-ayrı hissələrinin bu mətbəədə nəşr edilərək gənc üzvlər arasında yayılması istiqlalçılar tərəfindən cəsarətli addaım idi. Əbdül Vahab Yurdsevər "Mirzə Bala özünün bir kitabçasını da" İstiqlal mətbəəsində çap etdirdi - deyəndə şübhəsiz ki, 1922-ci ildə işıq üzü görən "Azərbaycan türk mətbuatı" nəzərdə tutulurdu. Kitabçanın buraxılış yerinə "Bakı, Birinci hökumət mətbəəsi, 1922" yazılsa da onun müəllifi təqib olunduğu üçün bu iş mümkünsüz idi. Nəşrin "firma-lent"ini dəyişdirməməkdə məqsəd diqqəti gizli mətbəədən yayındırmaq idi. Əslində "Azərbaycan türk mətbuatı" - şanlı mətbuat tariximizin 45 ilindən bəhs edən ilk əhəmiyyətli əsərdir. Burada sovet quruluşu üçün təhlükə törədən meyllər demək olar ki, yoxdur. Əksinə, bolşevik mətbuatı da daxil olmaqla Azərbaycanda türk dilində çıxan 91 adda qəzet və məcmuə haqqında məlumat verilmişdir ki, bu da dövrün çətinliklərini nəzərə alsaq bölünmüş, parçalanmış, talanlara məruz qalmış xalqın mənəvi dəyərlərinin göstəricisi kimi böyük sərvətdir. Lakin, bu sərvətin bolşeviklər üçün gözə girən tikanları, üzə bozaran faktları, nüfuzlu məclislərdə sovet liderlərinin fəxarətlə ucadan söylədikləri "İnqilabdan əvvəl başdan-başa savadsızlar ölkəsi olan Azərbaycan ..." fikrinin səmimiyyəti ilə ziddiyyət təşkil edirdi. Mirzə Balanın "Azərbaycan türk mətbuatı" kitabçası 1922-ci ildə çap olunub oxuculara çatdırılsaydı belə bir haqlı sual meydana çıxardı; ancaq Azərbaycanda və ancaq türk dilində 91 adda qəzet və jurnalı işıq üzü görən xalq "başdan-başa savadsız" ola bilərdimi?!

Əbdül Vahab gizli İstiqlal mətbəəsində Mirzə Balanın "bir neçə kitabça" çap etdirdiyini dilə gətirərkən çox güman ki, nəzərdə tutduğu toplulardan biri də "Yaşıl yapraqlar" idi. Məcmuənin yeganə 1-ci sayı 1922-ci ildə işıq üzü görmüş, üz qabığında "Sabir kitabxanasının qarein (oxucu-A.R) şurası tərəfindən nəşr edilmişdir" qeydi vardır. Bu günədək tədqiqat obyektinə çevrilməyən toplunun ilk səhifəsi istiqlal şairləri Əhməd Cavadın "Bu gün...", Hüseyn Cavidin "Bənim tanrım" şeirlərilə açılır və azadlıq fədaisi Mirzə Bala Məhəmmədzadənin "Sabir və xəlq" adlı məzmunlu məqaləsilə davam etdirilmişdir. Hüseyn Cavidin məşhur "Bənim tanrım" şeiri müəllifin 1968-ci il üç cildliyində üç bənd verilmişdirsə "Yaşıl yapraqlar"da bu şeir dörd bənddən ibarətdir. Siyasi motiv kəsb edən ikinci bənd sonrakı nəşrlər zamanı ixtisar edilmişdir.

Əhməd Cavadın "Bu gün..." şeiri yazıldığı və çap olunduğu dövrün milli-mənəvi reallığını, həmin günün tutqun üfüqlərinin yaratdığı əhvali-ruhiyyənin bədbin notlarını özündə tam və obyektiv əks etdirirdi.

***Hicranlar, ələmlər, tufanlar içində,***
***Qısıq bir səs kibi öləcəgəm bən.***
***Böylə göz yaşıyla keçən ömrümün,***
***Sonunda bir acı güləcəgəm bən.*** [1]

Əslində milli-mənəvi dəyərlərin bolşevik rejimi tərəfindən məhv olunduğu, talan və dəfn edildiyi günlərdə "Yaşıl yapraqlar" sabaha, gələcəyə ümidlə baxan milliyyətpərvərlərin acı bir qəhqəhəsi idi.

Topluda Əbdül Vahab, Hüseyn Sadıq, Ümmügülsüm, Məmmədəli Sidqi, Əbdül Rəhman Əbdülov, Türfə Sultan, Ələkbər Heydərzadə və b. milli ruhlu şeir və publisistik məqalələri yer almışdır. "Yaşıl yapraqlar"ın gizli İstiqlal mətbəəsində nəşr olunduğunu əsaslandıran faktlardan biri də odur ki, Az.FK müstəntiqləri nadirəyə çevrilmiş nüsxəni "əşyayi-dəlil" kimi istiqlalçıların cinayət işinə əlavə etmişlər və bununla da toplunun itib-batmaq və məhv olmaq təhlükəsindən "sığortalamış", özləri də bilmədən bununla istiqlal ədəbiyyatına, milli mətbuata xidmət göstərmişlər.

**Nəticə**

Az.FK-nın Məxfi şöbəsinin müstəntiqi Daad Mamedin 1924-cü ilin fevralın 9-da hazırladığı yekun qərarda 19 nəfər "İstiqlal"çının "təqsirlərinin" dərəcələri müəyyənləşdirilmişdir. Birləşmiş Dövlət Siyasi İdarəsinin Kollegiyası yanında Xüsusi Şuranın 25 aprel 1924-cü il tarixli qərarı ilə Əli Abbas Əliyev və Mürsəlqulu İmanov istisna olunmaqla (1-ci Petrovski şəhərinə qaça bilmiş, 2-cinin isə günahsızlığı sübuta yetirilmişdir - A.R.) əksər istiqlal mücahidləri 2-3 il müddətinə Ağ dənizdəki Solovki ölüm düşərgəsinə, "buzlu cəhənnəmə" sürgün edilmişdir. Rəhim bəy Vəkilov üç illik sürgündən yalnız 10 ildən sonra, 1934-cü ildə qayıda bilmiş, yenidən təqib olunduğu üçün Tiflisdə intihar etmişdir. Ağa Səlim Rəhimov və Ağa Kərim Əliyev sürgündən salamat qayıtsalar da yenidən gizli fəaliyyəti davam etdirdiklərinə görə Az.FK tərəfindən yenidən tutulub güllələnmişlər. Əbdül Vahab Məhəmmədzadə və Kərbəlayi Vəli Mikayılzadənin sürgün müddətləri dəfələrlə artırılmış, beləliklə onlar1932-ci ildə azad olunaraq Türküstana, oradan da İrana keçərək Az.FK təqiblərindən xilas ola bilmişlər. Hacı Baba Cəbiyev, Qurban Musazadə, Məşədi İslamov və Salman Rəhi-

mov 1926-cı ilin oktyabrın 22-də sürgündən buraxılsalar da vətəndə daima təqib olunmuşlar... Onlar məşəqqətlərə, əzab-əziyyətlərə düçar olsalar da "İstiqlal" qəzetini, "İstiqlal" mətbəəsini, İstiqlal düşüncəsini sovet rejiminin ən qəddar, amansız zamanında yaşadan və gələcəyə ötürən İSTİQLALÇILAR idi.

Müstəqil Azərbaycan Cümhuriyyətinin Sovet işğalına məruz qaldığı ilk günlərdən Mirzə Bala Məhəmmədzadənin rəhbərliyi, Abdul Vahab Yurdsevərin müavinliyi, Cəfər Cabbarlının baş katibliyi ilə yaranan və üç ilə yaxın gizli fəaliyyət göstərən sol müsavatçıların Milli İstiqlal Komitəsi sabiq SSRİ respublikaları arasında anoloqu olmayan, sivil mübarizə metodlarına yiyələnmiş mükəmməl təşkilat idi. İstiqlal Komitəsi ictimai, siyasi, hərbi, mədəni sahələrdə işğala, terrora, zorakılığa, talançılığa, ayrı-seçkiliyə, özbaşınalığa qarşı sözün qüdrətinə güvənərək mübarizə aparmaqla xalqın milli mənliyinin, məğrurluğunun, adət-ənənələrinin, mənəvi dəyərlərinin keşiyində cəsarətlə dayanmışdır. Bu istiqamətdə "İstiqlal" qəzetinin və eyniadlı mətbəənin bolşevik rejiminin sərtləşdiyi dövrdə səmərəli və ardıcıl fəaliyyəti Azərbaycan xalqına, ədəbiyyatına, mədəniyyətinə, jurnalistikasına, mətbəəçilik işinə baş ucalığı gətirən, müstəqil ölkəmizin hər bir vətəndaşında fəxarət duyğusu yaşadan, keşməkeşli tariximizdə və taleyimizdə danılmaz qürurlandırıcı faktdır.

## İSTİFADƏ EDİLMİŞ ƏDBİYYAT


1. Kor təsadüf. "Yeni Kafkasiya" dergi, İstanbul, 1923, 15 noyabr, № 4. S.16
2. Müsavat Firqəsinin protestosu. "Yeni Kafkasiya" dergi, İstanbul, 1923, 26 sentyabr, №1, s 8.
3. Azərbaycan Respublikası Milli Təhlükəsizlik Xidməti. Arxiv – PR-20002, iş-25693, vərəq 3.
4. Azərbaycan Respublikası Milli Təhlükəsizlik Xidməti. Arxiv – PR-19892, Novruz Ağa oğlu Ağayev, İş-25697, vərəq 9.
5. Yurtsever Abdül Vahap. Azerbaycan dram ediplerinden Cafer Cebbarlı. Ankara, "Azerbaycan" dergisi, 1952, 1 avqust, № 5, səh.5-7,10
6. Mirza-Bala. Cafer Cabarlı: Vefatının 3-cü yıl dönümü münasebetilə. Berlin, "Kurtuluş" aylık mecmua, 1938, Son kanun (yanuar) №39, səh.17
7. Azərbaycan Respublikası Milli Təhlükəsizlik Xidməti. Arxiv № PS. 1008, Cəfər Cabbarzadənin işi üzrə, St.-Qeyd. № 3845.İş № 791, vərəq 8.
8. Azərbaycan Respublikası Milli Təhlükəsizlik Xidməti. Arxiv № PS. 1008, Cəfər Cabbarzadənin işi üzrə, St.-Qeyd. № 3845.İş № 791, vərəq 9.
9. Azərbaycan Respublikası Milli Təhlükəsizlik Xidməti. Arxiv № Pr. 20007, Ağa Səlim Rəhimovun işi üzrə memorandum, İş № 2698, vərəq 53

10. Milli İstiqlal Komitəsinin Heyəti-Mərkəziyyəsi. 28 Aprel faciəsi münasibətilə, "İstiqlal" qəz., Bakı, 1923, 26 aprel, № 15, səh.1.
11. Mirza-Bala. Cafer Cabarlı: Diriligi, yarattıqları və vakıtsız ölümü. Berlin, "Kurtuluş" aylık mecmua, 1935, fevral №4, səh.107-112
12. Azərbaycan Respublikası Milli Təhlükəsizlik Xidməti. Arxiv № Pr. 20007, Ağa Səlim Rəhimovun işi üzrə memorandum, İş № 2698, vərəq 53
13. Azərbaycan Respublikası Milli Təhlükəsizlik Xidməti. Arxiv № 333, PF-274, Yeku Qərar. "Müsavat" Partiyasının tarixi, II cild, vərəq 91
14. Azərbaycan Respublikası Milli Təhlükəsizlik Xidməti. Arxiv № Pr. 20007, Ağa Səlim Rəhimovun işi üzrə memorandum, İş № 2698, vərəq 58
15. Azərbaycan Respublikası Milli Təhlükəsizlik Xidməti. Arxiv № PS. 16060, Əbdül Vahab Məmmədzadənin işi üzrə, İş № 64340, vərəq 14-15

# MÜNDƏRİCAT


## MÜASİR MEDİANIN ÇAĞIRIŞLARI

**Qulu MƏHƏRRƏMLİ**
BİRİNCİ TÜRKOLOJİ QURULTAY – 100: ORTAQ ƏDƏBİ DİL MEDİA DİSKURSU KİMİ DÜNƏNDƏN BU GÜNƏ ........................................ 3

**Səbinə İZZƏTLİ**
YENİ MEDİA EKOSİSTEMİNDƏ PROBLEMDƏN HƏLLƏ KEÇİD: JURNALİSTİKADA YENİ YANAŞMA........................................ 19

## QLOBALLAŞAN DÜNYADA İNFORMASİYA

**Vüqar ƏLİYEV**
DÜNYA MEDİASINDA QƏRƏZLİ İNFORMASİYA SİYASƏTİ: SƏBƏBLƏR VƏ TƏSİRLƏR ........................................ 30

**Aynur NƏSİROVA**
VİZUAL SAXTAKARLIQ VƏ XƏBƏRİN MÖTƏBƏRLİYİ PROBLEMİ.................. 37

**Əli HACIYEV**
SOSİAL MEDİA ALTERNATİV XƏBƏR MƏNBƏYİ KİMİ ........................................ 48

## KÜTLƏVİ KOMMUNİKASİYA LANDŞAFTI: YENİ TENDENSİYALAR

**Nargiza YUSUPOVA**
MƏTNİN KREOLİZASİYASI "Z" NƏSLİ ÜÇÜN YENİ VİZUAL KOMMUNİKASİYA FORMASI ........................................ 59

**Arzu İSAYEVA**
TELEJURNALİSTİKADA DATA ƏSASLI YANAŞMALAR VƏ VİZUAL TƏQDİMAT PROBLEMLƏRİ ........................................ 74

**Onur COŞKUN**
SİNEMADA METAMODERN SÖYLEMLERİN HERMENÖTİK OKUMASI: MODERNİZİM VE POSTMODERNİZİMİN DÖNÜŞÜMÜ ("*Don kişot'u öldüren adam*" *filmi əsasında*) ........................................ 88

## MÜASİR MEDİANIN PRİORİTET MÖVZULARI

**Anar HƏSƏNOV**
AZƏRBAYCAN MÖVZUSUNUN RUSİYA KİV- də İŞIQLANDIRILMASININ TƏKAMÜLÜ (2000–2024) ....................102

## MİLLİ MƏTBUAT TARİXİNƏ DAİR ARAŞDIRMALAR

**Asif RÜSTƏMLİ**
SOVET REJİMİNİN İLK İLLƏRİNDƏ GİZLİ İSTİQLAL FƏDAİLƏRİNİN FƏALİYYƏTİ....................121

**Aygün ƏZİMOVA**
ÖMƏR FAİQ NEMANZADƏ: MAARİFÇİLİKDƏN İSTİQLALA GEDƏN YOL.....144

## MEDİA SAVADLILIĞI VƏ JURNALİSTİKA TƏHSİLİ

**Nozima MURATOVA, Нигина ТУРГУНОВА**
ÖZBƏKISTAN İNFORMASİYA MƏKANINDA TƏNQİDİ KOMPETENSİYANIN İNKIŞAFINDA MEDİA TƏHSİLİNİN ROLU....................158

**MÜƏLLİFLƏR ÜÇÜN MƏLUMAT VƏ YADDAŞ ....................184**

# СОДЕРЖАНИЕ


## ВЫЗОВЫ СОВРЕМЕННЫХ СРЕДСТВ МАССОВОЙ ИНФОРМАЦИИ

**Гулу МАГЕРРАМЛИ**
ПЕРВЫЙ ТУРКОЛОГИЧЕСКИЙ СЪЕЗД – 100: ОБЩИЙ ЛИТЕРАТУРНЫЙ ЯЗЫК КАК МЕДИА-ДИСКУРС ОТ ВЧЕРАШНЕГО ДНЯ ДО НАСТОЯЩЕГО........................................3

**Сабина ИЗЗАТЛЫ**
СМЕНА ПАРАДИГМЫ ОТ ПРОБЛЕМ К РЕШЕНИЯМ В НОВОЙ МЕДИАЭКОСИСТЕМЕ: НОВЫЙ ПОДХОД В ЖУРНАЛИСТИКЕ....................19

## ИНФОРМАЦИЯ В ГЛОБАЛИЗИРУЮЩЕМСЯ МИРЕ

**Вугар АЛИЕВ**
ПРЕДВЗЯТАЯ ИНФОРМАЦИОННАЯ ПОЛИТИКА В МИРОВЫХ СМИ: ПРИЧИНЫ И ПОСЛЕДСТВИЯ........................................30

**Айнур НАСИРОВА**
ВИЗУАЛЬНАЯ ФАЛЬСИФИКАЦИЯ И ПРОБЛЕМА ДОСТОВЕРНОСТЬ НОВОСТНОЙ ИНФОРМАЦИИ........................................37

**Али ГАДЖИЕВ**
СОЦИАЛЬНЫЕ МЕДИА КАК АЛЬТЕРНАТИВНЫЙ ИСТОЧНИК НОВОСТЕЙ ........................................48

## СФЕРА МАССОВЫХ КОММУНИКАЦИЙ: НОВЫЕ ТЕНДЕНЦИИ

**Наргиза ЮСУПОВА**
КРЕОЛИЗАЦИЯ ТЕКСТА КАК НОВЫЙ ВИД ВИЗУАЛЬНОЙ КОММУНИКАЦИИ ПОКОЛЕНИЯ “Z” ........................................59

**Арзу ИСАЕВА**
ДАТА-ОРИЕНТИРОВАННЫЕ ПОДХОДЫ В ТЕЛЕЖУРНАЛИСТИКЕ И ПРОБЛЕМЫ ВИЗУАЛЬНОЙ ПРЕЗЕНТАЦИИ........................................74

**Онур КОШКУН**
ГЕРМЕНЕВТИЧЕСКОЕ ПРОЧТЕНИЕ МЕТАМОДЕРНИСТСКИХ ДИСКУРСОВ В КИНО: ТРАНСФОРМАЦИЯ МОДЕРНИЗМА И ПОСТМОДЕРНИЗМА (ФИЛЬМ «ЧЕЛОВЕК, УБИВШИЙ ДОН КИХОТА») ........ 88

**ПРИОРИТЕТНЫЕ ТЕМЫ СОВРЕМЕННЫХ СРЕДСТВ МАССОВОЙ ИНФОРМАЦИИ**

**Анар ГАСАНОВ**
ЭВОЛЮЦИЯ ОСВЕЩЕНИЯ ТЕМЫ АЗЕРБАЙДЖАНА В РОССИЙСКИХ СМИ (2000–2024) ........ 102

**ИССЛЕДОВАНИЕ ИСТОРИИ НАЦИОНАЛЬНОЙ ПРЕССЫ**

**Асиф РУСТЕМЛИ**
ДЕЯТЕЛЬНОСТЬ ТАЙНЫХ БОРЦОВ ЗА НЕЗАВИСИМОСТЬ В ПЕРВЫЕ ГОДЫ СОВЕТСКОГО РЕЖИМА ........ 121

**Айгюн АЗИМОВА**
ОМЕР ФАИГ НЕМАНЗАДЕ: ПУТЬ ОТ ПРОСВЕТИТЕЛЬСТВА К НЕЗАВИСИМОСТИ ........ 144

**МЕДИАГРАММАТИКА И ЖУРНАЛИСТИЧЕСКОЕ ОБРАЗОВАНИЕ**

**Нозима МУРАТОВА, Нигина ТУРГУНОВА**
РОЛЬ МЕДИАОБРАЗОВАНИЯ В РАЗВИТИИ КРИТИЧЕСКОЙ КОМПЕТЕНТНОСТИ В ИНФОРМАЦИОННОМ ПРОСТРАНСТВЕ УЗБЕКИСТАНА ........ 158

**ИНФОРМАЦИЯ И ПАМЯТЬ ДЛЯ АВТОРОВ ........ 184**

# CONTENTS


## CHALLENGES OF MODERN MEDIA

**Gulu MAHARRAMLI**
FIRST TURCOLOGY CONGRESS – 100: COMMON LITERARY LANGUAGE AS MEDIA DISCOURSE FROM YESTERDAY TO THE PRESENT......3

**Sabina IZZATLİ**
PARADIGM SHIFT FROM PROBLEMS TO SOLUTIONS IN THE NEW MEDIA ECOSYSTEM: A NEW APPROACH TO JOURNALISM......19

## INFORMATION IN A GLOBALIZING WORLD

**Vugar Aliyev**
BIASED INFORMATION POLICY IN THE WORLD MEDIA: CAUSES AND EFFECTS......30

**Aynur NASIROVA**
VİSUAL FORGERY AND THE PROBLEM OF CREDİBİLİTY OF NEWS......37

**Ali HAJİYEV**
SOCIAL MEDIA AS AN ALTERNATIVE NEWS SOURCE......48

## MASS COMMUNICATION LANDSCAPE: NEW TRENDS

**Nargiza YUSUPOVA**
TEXT CREOLIZATION IS A NEW FORM OF VISUAL COMMUNICATION FOR GENERATION “Z”......59

**Arzu Isayeva**
DATA-DRIVEN APPROACHES IN TELEJOURNALISM AND PROBLEMS OF VISUAL PRESENTATION......74

**Onur COSKUN**
A HERMENEUTIC READING OF METAMODERNISM DISCOURSES IN CINEMA: THE TRANSFORMATION OF MODERNISM AND POSTMODERNISM (THE FILM "THE MAN WHO KILLED DON QUIXOTE")......88

## PRIORITY TOPICS OF MODERN MEDIA

**Anar GASANOV**
EVOLUTION OF AZERBAIJAN'S COVERAGE IN RUSSIAN MEDIA
2000–2024)........................................................................................................102

## RESEARCH ON THE HISTORY OF THE NATIONAL PRESS

**Asif RUSTAMLI**
ACTIVITIES OF SECRET INDEPENDENCE FIGHTERS IN THE EARLY
YEARS OF THE SOVIET REGIME..........................................................................121

**Aygun AZIMOVA**
OMER FAIGH NEMANZADE: THE PATH FROM ENLIGHTENMENT
TO INDEPENDENCE..............................................................................................144

## MEDIA LITERACY AND JOURNALISM EDUCATION

**Nozima MURATOVA , Nigina TURGUNOVA**
THE ROLE OF MEDIA EDUCATION IN UZBEKISTAN IN DEVELOPING
CRITICAL COMPETENCE IN THE INFORMATION SPACE..................................158

**INFORMATION AND MEMORY FOR AUTHORS.............................................184**

**MEDİA PROBLEMLƏRİ elmi-nəzəri və analitik jurnal**

Rüblük nəşr: 2026 / №1 (2)

**Təsisçi:**

Bakı Dövlət Universiteti

**Redaksiyanın ünvanı:**

Azerbaycan Respublikası, Bakı şəhəri, Yasamal rayonu Zahid Xəlilov küç.,33
Tel.: (+994) 50-213-25-77

Azerbaycan Respublikasının "Media haqqında" qanununa müvafiq şəkildə təsis edilmişdir

**PROBLEMS OF MEDIA scientific-theoretical and analytical journal**

Quarterly: 2026 / №1 (2)

**Publisher:**

Baku State University

**Editorial title:**

Republic of Azerbaijan, Baku, Yasamal district, Zahid Khalilov str.33
Phone: (+994) 50-213-25-77

Established in accordance with the Law of the Republic of Azerbaijan "On Mass Media"

Çapa imzalanıb: 27.04.2026
Format 70x100 $^{1}/_{16}$. Həcmi: 12,5 ç.v.
Tiraj: 300 nüsxə

BDU Nəşr Evi
AZ 1148, Bakı ş., ak. Z.Xəlilov küçəsi, 33.
e-mail:bduneshrevi@bsu.edu.az
**www.bsu.edu.az**

bsu.edu.az
(+994 12) 430 32 45
info@bsu.edu.az
Ünvan: Bakı şəhəri, AZ 1148,
ak.Zahid Xəlilov küç., 33